# OSMANLIDA ERMƏNİ ƏHALİSİ VƏ ONUN SOSİAL - İQTİSADİ VƏZİYYƏTİ

**USLU Ramazan Halil oğlu**
***Bakı Dövlət Universiteti***

Osmanlı dövlətinin sərhədləri daxilində iyirmidən çox qeyri-müsəlman etnik qrup var idi. Osmanlı dövləti, bir qayda olaraq, tutduğu ərazilərdə nizam-intizam tədbirlərini gücləndirdikdən sonra bölgədə etnik və inzibati baxımdan islahatlar həyata keçirirdi. Osmanlı dövləti müsəlmanların sayını hərbi xidmətə çağırmaq, xristian təbəələrinin sayını isə vergiyə (cizyə) cəlb etmək üçün müəyyənləşdirirdi. Müsəlman əhalisinin sayını az göstərmək ölkənin hərbi qüdrəti, xristian əhalisinin sayını az göstərmək isə dövlətin iqtisadi gücü baxımından itkilərə gətirib çıxara bilərdi; hər iki aspektdən statistikanın dəqiq aparılması dövlətin maraqları üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu baxımdan Osmanlı dönəmində aparılmış statistikanın mötəbərliyinə güvənilir və obyektiv olmasına şübhə yaranmır.

Statistik göstəriciləri özündə əks elətdirən sənədlər XIX əsrə qədər «Tapu-tahrir defterleri», daha sonra isə «Temetrüat» adlanırdı. İmperiyanın konkret olaraq ayrı-ayrı əraziləri üzrə əhalinin siyahıya alınması və inzibati cəhətdən dövlət səviyyəsində siyasətin sistemli həyata keçirilməsinə sultan II Mahmut tərəfindən 1830-cu ildə başlanılmışdı. Əhalini müsəlman və xristian qisminə bölərək aparılan bu siyahıyaalma Osmanlı dövlətində əhalinin say tərkibini öyrənən ilk qaynaq kimi önəmlidir. Osmanlıdakı ilk siyahıyaalmaya görə Anadoluda və İmperiyanın Avropa hissəsində 4.000.000 civarında kişi əhalisi mövcud idi. 2.100.000 müsəlman, 400.000 xristian əhali olmaq üzrə 2.500.000 nəfər Anadoluda; 800.000-i xristian, 500.000-i müsəlman, yəhudi və s. qarışıq əhali olmaqla ümumilikdə 1.500.000 nəfər Avropadakı ərazilərdə yaşayırdı.

1326-cı ildə Bursa Osmanlının paytaxtı olduqdan sonra dövlətin ərazisində yaşayan ermənilərin təşkilatlanmasına və dini mərkəzlərinin Bursaya köçürülməsinə icazə verilmişdi. İstanbulun fəthindən sonra 1461-ci ildə isə Fateh Sultan Mehmetin icazəsi ilə ermənilərin Bursadakı dini mərkəzləri İstanbula köçürülmüşdü. Ruhani mərkəzin İstanbula köçməsi nəticəsində Anadolunun müxtəlif yerlərində, xüsusən də ucqar bölgələrində səpələnmiş halda yaşayan ermənilər paytaxta axışıb, burada kompakt halda yaşamağa başlamışdılar. Digər xristian əhalidən fərqli olaraq ermənilərin müxtəlif dövlət işlərinə irəli çəkilməsinə daha çox şərait yaradılırdı.

Osmanlıda sultan II Mahmut zamanında şəhər və qəsəbələrdə əhalinin siyahıya alınmasının nəticələri ermənilərin ümumi sayının dəqiq müəyyənləşdirilməsində vacib mənbədir. Həmin siyahıyaalmadan məlum olur ki, XVI əsrdə Osmanlıda müsəlman türk əhali 8l,10 % təşkil edib, xristianlar 12,45 %, ermənilərin nisbəti isə 6,23 % olub. Beləliklə, ermənilər əhalinin kiçik bir qismini təşkil etmişlər.

1896-1897-ci illərə aid olduğu təxmin edilən və Türkiyə Cümhuriyyətinin Başbakanlık Arxivində saxlanılan digər statistik sənədə görə erməni əhalisi 530.132 kişi, 450.404 qadın olmaqla cəmi 970.536 nəfər olmuşdur. Bu sənəddə Osmanlının bəzi bölgələri yer almadığına görə bu sayın bir az artacağı istisna edilmir. Həmin məlumatlar aşağıdakı cədvəldə sistemləşdirilmişdir:

Digər bir tədqiqatçı – Stanford J. Shaw isə 1890-cı ildə Osmanlı dövlətində 12.585.950 müsəlmanla yanaşı 1.139.053 erməni; 1897-ci ildə 14.111.945 müsəlmanla yanaşı 1.162.853 erməni; 1906-cı ildə 15.518.478 müsəlmanla yanaşı 1.140.563 erməni və 1914-cü ildə 15.044.846 müsəlmanla yanaşı 1.229.007 erməni əhalinin yaşadığını müəyyənləşdirmişdir.

Bu rəqəmlərlə yanaşı erməni patriarxlığının iddia etdiyi rəqəmlərə diqqət vermək və elmi nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Erməni kilsəsi uşaqları xaç suyuna salmaq və vəfat edənləri qeyd etməklə əhalinin sayı barədə fikir yürüdür. Ancaq erməni patriarxlığının verdiyi rəqəmlər nə həmin dövrün rəsmi statistikası, nə

| | müsəlmanlar | ermənilər | toplam sayı |
|---|---|---|---|
| Ermənilərin ən çox yaşadıqları vilayətlərdə | 3.635.086 | 810.285 | 4.445.371 |
| İstanbul və digər vilayətlərdə | 4.426.525 | 283.064 | 4.709.589 |
| Suriya, Fələstin və Adalarda | 4.068.646 | 59.018 | 4.127.664 |
| **Toplam** | **12.130.257** | **1.152.367** | **13.282.624** |

də ki digər mənbələrdə yer alan rəqəmlərlə üst-üstə düşmür. Nəzərə almaq lazımdır ki, yeni doğulmuş uşaqların ölkə boyu bütün kilsələrdə xaç suyuna salınması onların sayının müəyyənləşdirilməsində mötəbər mənbə ola bilməz. Yalnız bir amildən çıxış etməklə əhalinin say tərkibi haqqında mülahizə yürütmək tam təsəvvür formalaşdırmır və birtərəflidir. Burada məqsəd erməni əhalisinin sayının Birinci Dünya müharibəsi gedişində kəskin şəkildə azalmasını göstərməklə uydurma soyqırım iddialarına bir növ «dəlil-sübut» toplamaqdır.

Digər tərəfdən, XIX əsrin sonlarına doğru erməni əhalisinin azalmağa doğru getməsini həmin dövrün siyasi hadisələri və böyük dövlətlərin maraqları ilə izah etmək lazımdır. Ermənilərin 1827-1828, həmçinin 1877-1878-ci illər Osmanlı-Rus savaşları sırasında rus birliklərinə və Birinci Dünya müharibəsində də yenə başda Rusiya olmaqla fransız və ingilis birliklərinə qatılması səbəbiylə saylarında ciddi azalma olmuşdu. Məsələnin bu aspektdən araşdırılması bir sıra Qərb alimlərinin də tədqiqatlarından keçmişdir. 1829-cu ildə rus qoşunları Ərzurumdan çəkilərkən 40.000 civarında ermənini özləri ilə birlikdə Cənubi Qafqaza gətirmiş və burada tarixi Azərbaycan torpaqlarında məskunlaşdırmışdılar, eyni şəkildə 1878-1890-cı illər arası 120.000 civarında erməni Osmanlıdan yenə də Cənubi Qafqaza köç etmişdi.

Eyni zamanda 1838-ci ildə Osmanlının imzaladığı

ticarət müqavilələrindən sonra erməni əhalinin müəyyən bir qismi rus, ingilis və fransız vətəndaşlığına keçmiş və həmin ölkələrdə yaşamağa başlamışlar. Tarixi prosesin belə obyektiv prizmadan işıqlandırılması əvəzində erməni əhalinin XIX əsrin sonlarına yaxın sayının azalması amilindən yararlanan erməni tarixçiləri bunu əllərində bayraq edib, yalançı soyqurum iddialarına ideoloji və «elmi» don geyindirməyə cəhdlər edirlər.

Birinci Dünya müharibəsi ərəfəsində Osmanlıdakı ermənilərin sayı məsələsində yenə dövlətin həyata keçirdiyi siyahıyaalma ən mötəbər mənbədir. 1905-ci ildə başlanmış və 1914-cü ilə kimi davam edən siyahıyaalma prosesi dövlətin bütün ərazilərini əhatə etmiş, eyni zamanda yerli müsəlman əhali ilə yanaşı qeyri-millətlərin sayı dəqiqliyi ilə göstərilmişdir. Siyahıyaalma və ümumiyyətlə bütün statistik göstəricilər Sicil-i Nüfus-u İdare-i Umumiyesi Müdüriyeti tərəfindən həyata keçirilmişdi. Qeyd etmək vacibdir ki, bu statistik göstəricilər 1919-cu ildə fransızcaya tərcümə edilmiş və bütün dünyada yayımlanmışdır. Beləliklə, 1914-cü ilin rəsmi statistikasına görə Osmanlıda 13.339.000 müsəlman, 1.234.671 nəfər erməni olmuşdur.

Onu da nəzərə almaq lazımdır ki, bir çox nüfuzlu tədqiqatçılar da bu statistikanın mötəbərliyini qəbul etmiş və onların da gətirdikləri rəqəmlər rəsmi Osmanlı qaynağına uyğundur. Məsələn, qərb tədqiqatçılarından Stanford J. Şuo həmin dövrdə erməni əhalisinin sayını 1.229.007 olaraq vermiş, digər avropalı araşdırmaçı H. Lynç 1.324.246, L. De Constenson 1.400.000 və H. Paster Madijian 1.700.000 olaraq göstərmişdir.

Bu rəqəmlərə nəzər yetirdikdə Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı dövlətinin bütün regionları nəzərə alınmaqla ermənilərin ümumi sayının ən çoxu 1.300.000 olduğu ortaya çıxmaqdadır. Bu bir daha sübut edir ki, heç bir elmi metodlara söykənməyən erməni patriarxlığının verdiyi rəqəmlər sadəcə olaraq təbliğata və uydurma soyqırım iddialarını əsaslandırmağa yönəlmişdir. Heç də təəccüblü deyil ki, erməni yazarları və patriarxlığı ermənilərin sayını 5 milyona çıxarmışlar.

Birinci Dünya müharibəsi və Türkiyədə Qurtuluş savaşı gedişində Anadaolu ərazilərində sadəcə 70.000-dən çox erməni qalmışdı. Onların böyük əksəriyyəti Cənubi Qafqaza axın etmiş, həmçinin Avropa ölkələrinə və Amerikaya getmişlər.

Dünyanın ən məşhur demoqraflarından biri olan ABŞ-ın Luisvill Universitetinin professoru Castin Mak Karti "Müsəlmanlar və milli azlıqlar-Osmanlı Anadolusunun əhalisi və imperiyanın süqutu" adlı əsərində öz tədqiqatlarının təkzibolunmaz nəticələrini xəritə və cədvəllər şəklində tərtib etmişdir. "Altı vilayət" adı ilə qeyd olunan Anadolu xəritəsi birmənalı şəkildə təsdiq edir ki, "protestant" erməni dövlətinin yaradılması, bütün müsəlman əhalisinin köçürülməsi əvvəlcədən planlaşdırılmışdısa da, əlçatmaz xülya olmuşdur. Bizim günlərdə ölkənin qərbində azərbaycanlıların öz torpaqlarından qovulması zamanı bu siyasət dramatik miqyasda həyata keçirilmişdir.

Castin Mak Karti bəzi məqamları üzə çıxarmağa çalışarkən göstərir ki, "Ermənistan" və "erməni" sözlərinin anlayışında böyük yanlışlıq vardır: Ermənistan - məsələn, Amerika kimi coğrafi anlayışdır; braziliyalılar, mayya və eskimoslar ABŞ vətəndaşları kimi amerikalılardır. Bu eynilə türklər, kürdlər, gürcülər və digər kiçik etnik qruplar, o cümlədən "hayklar" yaşayan Ermənistana da aiddir (ermənilər özlərini "hayk", Anadolunun şərqində qurmaq istədikləri respublikanı "Hayastan" adlandırırlar). Müəllif daha sonra yazır: "Altı vilayətin əhalisi barədə manipulyasiyanın klassik nümunəsi: Birinci Dünya müharibəsindən sonra Parisdə Antanta dövlətləri qarşısında hesabat verən erməni parlamentariləri "erməni patriarxının statistikasını" təqdim etmişdilər. Bu statistikaya görə, 1.018.000 nəfər hayk, həmçinin 165.000 digər xristianlar 666.000 türkə, qalanları isə çərkəzlər, lazlar, kürd nomadları, oturaq kürd xalqları və s. oımaqla ümumi sayı 1.432.000 nəfər olan müsəlmanlara qarşı qoyulur ki, bu da "sənədi" başdan-başa iftiraya çevirir.

Osmanlı statistikasına görə ümumi əhalinin 784.917 nəfərini (19 faiz) ermənilər, 176.845 nəfərini (4 faiz) digər xristianlar, 3.173.918 nəfərini (77 faiz) müsəlmanlar təşkil edirdi.

Beləliklə, real statistika ilə yanaşı bir vacib məqamı da vurğulamaq lazımdır ki, bəzən tədqiqatlarda Osmanlı daxilində "Qərbi Ermənistan" anlayışına rast gəlinir, amma tarixi faktlar sübut edir ki, ermənilər Osmanlının heç bir yerində çoxluqda olmamışlar. Başqa sözlə desək, ermənilərin üstünlük təşkil etdiyi heç region və ya şəhər olmamışdır. Bu tezis bütöv şəkildə Anadolunun cənub hissəsini əhatə edəcək Ermənistan dövlətinin yaradılması xülyasına, məkrli planlara hesablanmışdır və heç bir fakta söykənməyən mənasız fərziyyədən başqa bir şey deyil.

## ƏDƏBİYYAT


*1. "Tercüman" qəzeti (Türkiyə), 13 iyun 1978-ci il.*

*2. Türkiye Cümhuriyeti Başbakanlık Osmanlı Arşivi (BOA), Dosya: Yıldız Evrakı no: Kısım - 36, Zarf - 152, Evrak no: 131/41, Karton no: 8; Yıldız Evrakı, Zarf-156, iç no: 24 və s.*

*3. N.Banoğlu, Ermeninin Ermeniye Zülmü (Belgeleri ile), Ankara, 1976. - S.49-50.*

*4. Geçmişden bugüne türk-ermeni ilişkileri. Ankara. 1989. - S.19-20; Türk Ermenilerinden gerçekler. İstanbul, 1980. - S.4;*

*5. T.C. BOA. Dosya: Yıldız Evrakı, Dosya no: Kısım 36, Zarf-152, Evrak no: 131/41, Karton no: 8.*

*6. Osmanlı Arşivi. Yıldız tasnifi. Hrmeni meselesi. Talori olayları, C. 1, s. XV; N.Banoğlu. Ermeninin Ermeniye Zülmü (Belgeleri ile). Ankara, 1976. - S.14.*

*7. T.C, BOA, Dosya: Yıldız. Evrakı, Dosya no: Kısım-36, Zarf-152, no: 131/41, Karton no: 8; Osmanlı Belgelerinde Ermeniler (19.VII-15.VIII.1895). İstanbul, 1991, s. X; T.C. BOA, Yıldız Evrakı, Zarf no: 15, iç no: 24 və s.*

*8. Belgelerle türk tarih dergisi (B.T.T D.). 1968, №8. - S.32-33.*

*9. T.C. BOA, Yıldız Evrakı, Zarf no: 156, iç no: 24; E.Z.Karal, Osmanlı Tarihi, VIII cilt, Ankara, 1983. - S.484.*

*10. Bilal N. Şimşir. İngiliz belgelerinde Osmanlı ermenileri (1856-1880), İstanbul, 1986. -S.150-151.*

*11. Osmanlı belgelerinde ermeniler (9.VII-15.VIII.1895), İstanbul, 1991.*